AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

AZƏRBAYCAN ŞİFAHİ XALQ ƏDƏBİYYATINA DAİR TƏDQİQLƏR

2026 / 2 (66)

BAKI – 2026

Toplu Azərbaycan Milli Elmlər Akademiyası
Folklor İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunur.

Redaksiya heyəti:
Kamal ABDULLA, Mehmet AÇA (Türkiyə), Mahmud ALLAHMANLI, Baxıtjan AZİBAYEVA (Qazaxıstan), Füzuli BAYAT, Nizami CƏFƏROV, Lyubov ÇİMPOYEŞ (Moldova), Necati DEMİR (Türkiyə), Rəhilə DAVUT (Çin), Metin EKİCİ (Türkiyə), Mira BALTIMOVA (Qazaxıstan), Abdulkadir EMEKSIZ (Türkiyə), Əziz ƏLƏKBƏRLİ, Əfzələddin ƏSGƏR, İsa HƏBİBBƏYLİ, Sərxan XAVƏRİ, Ağaverdi XƏLİL, Rza XƏLİLOV, Vasiliy İLLARİONOV (Rusiya), Mamatkul JURAYEV (Özbəkistan), Muxtar KAZIMOĞLU-İMANOV, Aynur KOÇAK (Türkiyə), Talantalı Bakçiyev (Qırğızıstan), Ramazan QAFARLI, Səfa QARAYEV, Hikmət QULİYEV, İslam SADIQ, Qalib SAYILOV, Atilla JORMA (Finlandiya), İlseyar ZAKİROVA (Tatarıstan)

Baş redaktor: **Prof. Seyfəddin RZASOY**

Baş redaktorun müavini: **Dos. Nail QURBANOV**

Məsul katib: **Dos. Elçin QALİBOĞLU (İMAMƏLİYEV)**

Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. Elmi-ədəbi toplu, 2026/2 (66). Bakı, “Turan Advertising”, 2026.

ISSN 2309-7922

http: www.tedqiqler.az

© Folklor İnstitutu, 2026

Füzuli BAYAT
AMEA Folklor İnstitutu şöbə müdiri,
fuzulibayat58@gmail.com.
ORCID ID: 0000-0002-0811-5852
https://doi.org/10.59849/2309-7922.2026.2.3

PEŞƏ LƏTİFƏLƏRİ, RƏQƏMSAL MÜHİTDƏ LƏTİFƏLƏRİN "YENİDƏN İSTEHSALI": NƏZƏRİ YANAŞMA

Xülasə

Bu məqalədə peşə lətifələrinin ənənəvi şifahi mühitdən rəqəmsal kommunikasiya məkanına keçidi və rəqəmsal media şəraitində yenidən necə "istehsal" edildiyi və bunun mexanizmləri nəzəri müstəvidə araşdırılır. Tədqiqatın əsas məqsədi peşə yumorunun internet platformalarında uğradığı struktur-semantik dəyişiklikləri, eyni zamanda bu prosesdə korporativ kimliyin və sosial tənqidin təzahür formalarını müəyyənləşdirməkdir. İnternet folklorunun (netlor) nəzəri prinsiplərinə əsaslanan bu iş, şifahi şəkildə ötürülən lətifələrin virtual məkanda internet memləri, qısa videolar və vizual-verbal mətnlər formatında yenidən bərpa edildiyini göstərir. Bu transformasiya bir tərəfdən kommunikasiya kanallarının dəyişməsi, digər tərəfdən mətnin sosial funksiyalarının yenidən qurulması mənasına gəlir. Bununla bərabər bu tədqiqatda peşə lətifələrinin iş mühitindəki psixoloji gərginliyi azaltmaq, peşəkar həmrəyliyi möhkəmləndirmək, həmçinin təşkilatdaxili və qrupdaxili iyerarxiyaları araşdırılır. Belə ki, idarəetmədəki absurd praktikaları satira atəşinə tutmaqla sabitləşdirici, yumşaldıcı və tənqidi funksiyalar da təhlil olunur. Əsas məsələ rəqəmsal mühitdə peşə lətifələrinin müasir əmək mədəniyyətinin və sosial münasibətlərin mövcud konjonktürdə yenidən "istehsalı" və mənalandırılması prosesini araşdırmaqdır.

Açar sözlər: peşə lətifələri, rəqəmsal folklor, netlor, yenidən istehsal, sosial tənqid.

Füzuli BAYAT

OCCUPATIONAL JOKES, "REPRODUCTION" OF JOKES IN THE DIGITAL ENVIRONMENT: A THEORETICAL APPROACH

Abstract

This article theoretically examines the transition of occupational jokes from the traditional oral folklore environment to the digital communication space, investigating how they are "reproduced" under digital media conditions along with the underlying mechanisms of this process. The primary objective of the research is to identify the structural-semantic changes that occupational humor undergoes on internet platforms, as well as to determine the manifestations of corporate identity and social critique within this process. Based on the theoretical principles of internet folklore (netlore), this study shows that orally transmitted jokes are reconstituted in the virtual sphere in the format of internet memes, short videos, and visual-verbal texts. This transformation is, on the one hand, a shift in communication channels, and on the other hand, a reconstruction of the social functions of the text. Along with this, the study analyzes the stabilizing, mitigating, and critical functions of occupational jokes, such as reducing psychological stress in the workplace, strengthening professional solidarity, and simultaneously critiquing intra-

organizational hierarchies and absurd management practices. The core focus is to investigate the process of reinterpreting and "reproducing" contemporary labor culture and social relations through occupational jokes in the digital environment within the existing conjuncture.

Keywords: occupational jokes, digital folklore, netlore, reproduction, social critique.

Физули БАЯТ

ПРОФЕССИОНАЛЬНЫЕ АНЕКДОТЫ, «ВОСПРОИЗВОДСТВО» АНЕКДОТОВ В ЦИФРОВОЙ СРЕДЕ: ТЕОРЕТИЧЕСКИЙ ПОДХОД

Аннотация

В данной статье в теоретическом аспекте исследуется переход профессиональных анекдотов из традиционной устной фольклорной среды в цифровое коммуникационное пространство, а также то, как они вновь «воспроизводятся» в условиях цифровых медиа, и сами механизмы этого процесса. Основная цель исследования заключается в определении структурно-семантических изменений, которым подвергается профессиональный юмор на интернет-платформах, а также форм проявления корпоративной идентичности и социальной критики в ходе данного процесса. Основываясь на теоретических принципах интернет-фольклора (нетлора), данная работа показывает, что передаваемые в устной форме анекдоты восстанавливаются в виртуальном пространстве в формате интернет-мемов, коротких видеороликов и визуально-вербальных текстов. Эта трансформация, с одной стороны, представляет собой смену коммуникационных каналов, с другой стороны – реконструкцию социальных функций текста. Наряду с этим в исследовании анализируются такие стабилизирующие, смягчающие и критические функции профессиональных анекдотов, как снижение психологического напряжения в рабочей среде, укрепление профессиональной солидарности и одновременная критика внутриорганизационных иерархий и абсурдных практик управления. Главный вопрос заключается в изучении процесса «воспроизводства» и осмысления современной трудовой культуры и социальных отношений в цифровой среде посредством профессиональных анекдотов в контексте существующей конъюнктуры.

Ключевые слова: профессиональные анекдоты, цифровой фольклор, нетлор, воспроизводство, социальная критика.

Giriş

Müasir şəhər folklorunun ən dinamik qollarından olan peşə lətifələri əmək mühitindəki gündəlik təcrübələri, sahədaxili iyerarxiyanı və kollektiv təsəvvürləri yumor vasitəsilə kodlaşdıran mühüm janrlardandır. Bu mətnlərdə peşə etikası və davranış normaları ilə yanaşı, iş bölgüsü, sosial bərabərsizlik, məsuliyyətdən yayınma, bürokratik çıxılmazlıq və səlahiyyət ziddiyyətləri tənqidi prizmada əks olunur. Folklor mətnini konkret sosial şərait və icra situasiyasının törəməsi sayan performans nəzəriyyəsi bu nümunələrin formal məzmunundan daha çox, onların hansı kontekstdə, hansı auditoriya qarşısında və hansı kommunikativ sərişdə ilə aktuallaşdığını müəyyənləşdirməyə imkan verir (Bauman, 1977, s. 8-11).

Peşə yumorunun funksionallığı daxili və xarici sosial baxışların qarşılıqlı dialoqundan qaynaqlanır. Bu səbəbdən peşə lətifələri ikili simvolik mahiyyət daşıyır: bir tərəfdən peşəkar korporativ həmrəyliyi, sahəvi jarqonu və qrupdaxili identikliyi (ezoterik aspekt) möhkəmləndirir, digər tərəfdən isə cəmiyyətin ayrı-ayrı peşə sahiblərinə yönəltdiyi stereotipləri, skeptisizmi və sosial qınağı (ekzoterik aspekt) ifadə edir (Davies, 2011, s. 1-8; Dundes, 1980, s. 20-39). Qrupdaxili və qrupxarici sərhədlərin müəyyənləşməsi yumorun sosial təyinatını və tənqid hədəfini şərtləndirən başlıca amildir.

Folklorun rəqəmsal mühitə transferi peşə lətifələrinin təbiətini, strukturunu və dövriyyə kanallarını əsaslı şəkildə dəyişmişdir. Ənənəvi olaraq qapalı iş məkanlarında və şifahi ünsiyyətdə reallaşan lətifə icrası virtual məkanda sosial şəbəkə lentlərinə, tematik forumlara, messencer qruplarına və internet memlərinə transformasiya olunmuşdur. Bu keçid mətnin yayılma sürətini artırmaqla yanaşı, folklorun ontologiyasını da yeniləmişdir: auditoriya passiv dinləyici mövqeyindən çıxaraq mətni vizualla hibridləşdirən, remiks edən və başqa əmək sahələrinə uyğunlaşdıran fəal iştirakçıya çevrilmişdir. Belə bir mexanizm vizual-mətn vahidlərinin kollektiv şəkildə təqlidi, yenidən mətnləşdirilməsi və tirajlanması prinsipinə əsaslanan hipermemetik məntiqlə şərtlənir (Shifman, 2014, s. 18-24).

Klassik lətifələrlə rəqəmsal peşə memləri arasındakı struktur uyğunluqları birbaşa genetik varislikdən daha çox, arxetipik komik mexanizmlərin (hazırcavablıq, status uyğunsuzluğu, rəhbər obrazının absurd tələblərlə karikaturalaşdırılması) yeni texnoloji şəraitdə rekontekstualizasiyası kimi çıxış edir. Bu müstəvidə tədqiqatın məqsədi peşə lətifələrinin sosial-mədəni əsaslarını, rəqəmsal mühitdə yenidən istehsal qanunauyğunluqlarını və ənənəvi şifahi nümunələrlə müasir internet memləri arasındakı funksional paralelləri nəzəri müstəvidə təhlil etməkdir. Tədqiqatın empirik bazasını müasir Azərbaycan rəqəmsal seqmentindən ("LinkedIn", "Facebook", "Telegram" kanalları və peşəkar forumlar) toplanmış, yerli əmək bazarı və korporativ münasibətlər zəminində formalaşan dinamik folklor faktları təşkil edir.

1. Variant, yoxsa yenidən istehsal?

Klassik anlamda lətifə çevik, lakonik janrlardan biri olub ənənəvi şifahi məkan-zaman koordinatlarından şəhər mədəniyyətinin rəqəmsal seqmentinə transfer olunarkən onun qanunauyğunluqları ontoloji səviyyədə dəyişmişdir. Belə ki, nəzəri diskurs prizmasından yanaşdıqda, müəyyən peşə təbəqələrinə (həkim, hüquqşünas, müəllim, mühəndis, proqramçı və s.) aid lətifələrin klassik folklor variantlığı ilə onların müasir şəhər ekologiyasında və kiber-məkanda yenidən istehsalı (reproduksiya) arasındakı qarşılıqlı münasibət mühüm elmi problem kimi aktuallaşır. İstər təbii variantlaşma, istərsə də rəqəmsal-texnoloji istehsal, mətnin daxili dinamizmini təmin etmək, gülüş doğuran semantik nüvəni qorumaq və dövrün aktual sosial-iqtisadi reallıqlarına adaptasiya olunmaq baxımından ümumi funksional zəminə söykənir. William Bascomun folklor nəzəriyyəsinə görə, lətifə

insanın gündəlik qayğılardan və iş mühitindəki iyerarxik təzyiqlərdən uzaqlaşmasına, toplanmış gərginliyi zərərsiz şəkildə boşaltmasına kömək edən mühüm vasitədir (Bascom, 1954, s. 333-349). Ənənəvi şifahi mühitdə peşə sahəsindəki ziddiyyətlər, bürokratik maneələr və sosial münasibətlər danışanın səs tonu, yerli ləhcəsi və dinləyicinin səviyyəsinə görə dəyişib zənginləşirdi. Müasir şəhər həyatında isə bu peşə stereotipləri məzmununu itirmədən, sadəcə sosial media və rəqəmsal vasitələrlə yayılmağa davam edir.

Digər tərəfdən bu iki təzahür arasında dərin struktur, funksional və epistemoloji fərqlər mövcuddur. Klassik variantlıq şifahi folklorun canlı, üzbəüz ünsiyyətə və kollektiv yaddaşa əsaslanan fasiləsiz yaradıcılıq aktıdır. Bu müstəvidə mətn hər ifa anında faktiki olaraq yenidən doğulur. Dan Ben-Amosun folkloru "kiçik qruplarda cərəyan edən bədii ünsiyyət prosesi" kimi səciyyələndirən modelinə uyğun olaraq, ənənəvi lətifə birbaşa ifaçı və auditoriya arasındakı situasiyaya bağlı kommunikativ hadisədir (Ben-Amos, 1971, s. 3-15). Eyni peşəkar situativ məzmun şifahi ənənədə ifaçının fərdi intellektual baqajına, dinləyici auditoriyasının reaksiyasına, səs tonuna, pauza sənətinə, mimika və jestlərin zənginliyinə görə transformasiyaya uğrayır.

Şəhər mühitində cərəyan edən yenidən istehsal isə ilk növbədə fərqli dinamikaya malikdir. Şəhərin kəskin ritmi və rəqəmsallığın həyatın bütün sferalarına nüfuz etməsi peşə lətifələrini şifahi məclislərin məhsulu olmaqdan çıxararaq virtual kommunikasiya vahidinə çevirir. Bu keçidi folklorşünas Jan Harold Brunvandın şəhər folkloruna dair nəzəri postulatları zəminində izləmək mümkündür. Brunvand müasir şəhər mühitində ənənəvi şifahi kanalların yerini texnoloji vasitələrin aldığını göstərərək "fakslor" (*faxlore*) və kseroks folkloru (*xeroxlore*) anlayışlarını irəli sürmüş, rəsmi institusional mexanizmlərin daxilində qeyri-rəsmi xalq gülüşünün texniki avadanlıqlar vasitəsilə təkrar istehsal edildiyini əsaslandırmışdır (Brunvand, 1981; Brunvand, 1984). Rəqəmsal dövrdə isə bu proses internet mühitinin şəbəkə folkloruna (netlore) transfer olunmuşdur (Brunvand, 1993, s. 221-235). Burada yenidən istehsal həm sosioloji, həm də sırf texnoloji proses kimi reallaşır. Klassik variantlıqda mətnin orfoqrafik və semantik dəyişməsi mütləq idisə, rəqəmsal şəhər mühitində "kopyala-yapışdır" vərdişi vasitəsilə mətn öz ilkin leksik formasını qoruyaraq saniyələr içində qlobal şəbəkə vasitəsilə minlərlə istifadəçiyə çatdırılır.

Bu durumda rəqəmsal reproduksiyanın əsas hədəfi mətni daxildən dəyişdirməkdən daha çox, onu platformaların tələblərinə uyğunlaşdırmaq və multimedialaşdırmaqdır. Baş verən transformasiyalar mətnin təqdim edildiyi platforma konteksti ilə şərtlənir. Texniki reproduksiya konsepsiyasına əsasən, mexaniki vasitələrlə çoxaldılan mədəniyyət faktı konkret zaman və məkana bağlı olan fərdi təkrarsızlığını (Benjamin, 1936, s. 40-68), yəni ilkin "aura"sını itirsə də, hamı üçün əlçatan olur. Eynilə, rəqəmsal mühitdə peşə lətifəsi canlı ifaçının fərdi söyləmə bacarığından məhrum olsa da, platformaların texnoloji xüsusiyyətlərinə uyğun olaraq çoxşaxəli formatlara çevrilir: mikrobloqlarda lakonik sarkastik qeyd-

lərə və aforizmlərə, vizual yönümlü sosial şəbəkələrdə qrafik mem, infoqrafika və karikaturalara, qısametrajlı video platformalarında dinamik skeçlərə, sürətli reaksiyalara, skrinşotlara və tematik stikerlərə transformasiya olunur. Rəqəmsal mem mədəniyyətinin təhlili göstərir ki, virtual məkanın auditoriyası passiv istehlakçı mövqeyindən çıxaraq mətn və vizual layları hibridləşdirən fəal iştirakçıya çevrilir. Bu qarşılıqlı əlaqə isə peşə folklorunun rəqəmsal mühitdə fasiləsiz yenidən istehsal mexanizmini təmin edir.

Məsələyə nəzəri cəhətdən yanaşdıqda, rəqəmsal mühitin peşə lətifələrinin variantlığına təsirinin birmənalı olmadığı görülür. Bu lətifələr dialektik ziddiyyətlər üzərində qurulmuş ikili və paradoksal təbiət nümayiş etdirir. Bir tərəfdən, virtual aləm variantlıq prosesini qeyri-məhdud şəkildə sürətləndirir və şaxələndirir və hər bir istifadəçi paylaşım edərkən mətni öz fərdi iş təcrübəsinə uyğunlaşdırır, peşə jarqonlarını daxil edir, altyazılar və tərcümələrlə lokalizasiya aparır və s. Hətta anında onlarla yeni variant törəyir. Digər tərəfdən isə platformaların alqoritmik memarlığı ənənəvi variantlaşmanın qarşısını kəsərək mətnin strukturunu sərt şəkildə dondurur. Sosial şəbəkə alqoritmləri ən çox qarşılıqlı təsir (bəyənmə, şərh, paylaşım) toplayan vahid variantı kütləvi şəkildə ön plana çıxarır və alternativ versiyaların görünməsini məhdudlaşdırır. Bəyənmə qazanan forma auditoriyanın şüurunda müvafiq peşə qrupunun "rəsmi/standart" lətifəsi kimi möhkəmlənir. Texnoloji təkrarlanma nəticəsində mətn artıq dəyişməz koda çevrilir, serverlərin rəqəmsal arxivlərində həkk olunur və onun canlı folklorik mutasiyası faktiki olaraq dayanır.

Yenidən istehsal olunan lətifələri qısa olaraq belə yekunlaşdırmaq mümkündür. Rəqəmsal mühitdə peşə lətifələrinin söylənməsi xətti xarakter daşıyır, yəni lətifə lokal və ya virtual mühitdə yaranır, ilk paylaşımla dövriyyəyə girir, istifadəçi reaksiyaları ilə qısa müddət ərzində yenidən istehsal olunur, ardınca viral mərhələyə çataraq geniş yayılır, alqoritmlər tərəfindən dondurulur, server bazalarında arxivləşir və nəhayət, yeni peşəkar, ictimai və ya iqtisadi böhranlar fonunda təkrar dövriyyəyə buraxılaraq yenidən aktuallaşır. Bu dövriyyə Brunvandın şəhər əfsanələrində vurğuladığı dövri canlanma və uyğunlaşma dinamikası ilə tam səsləşir (Brunvand, 1999, s. 17-24). Ənənəvi şifahi variantlıqda əsas məsələ mətnin ifaçıdan ifaçıya şüurlu, yaradıcı və dinamik şəkildə zənginləşərək çoxalmasıdır. Rəqəmsal mühitdə isə yenidən istehsal mətnin müxtəlif platformalara konvertasiya olunaraq texnoloji mexanizmlərlə dondurulması, sürətli tirajlanması və kütləvi istehlakıdır. Kiberfolklor nəzəriyyəsində qeyd edildiyi kimi, rəqəmsal məkan folkloru məhv etmir, əksinə onun mövcudluq və ötürülmə paradiqmasını yenidən müəyyənləşdirir (Blank, 2009, s. 1-20). Nəticədə, müasir peşə lətifəsi eyni anda həm fərdi paylaşımlarla mutasiyaya uğrayan, həm də rəqəmsal kopyalanma və alqoritmik filtrasiya vasitəsilə standartlaşan ikili ontologiyaya malik yeni tipli folklor vahidinə çevrilir.

2. Peşə lətifələrinin sosial mühiti və funksiyaları

Peşə lətifələrinin yarandığı yer əmək prosesidir. Bu lətifələr mövcud situasiyaları yumoristik təhkiyəyə çevirməklə yanaşı, peşə qruplarının qurumsal mühiti və öz sosial statuslarını necə dərk etdiklərini də kodlaşdırır. Onların məzmununda peşə bilikləri, gündəlik iş təcrübəsi, sahədaxili iyerarxiya və əmək bölgüsündən qaynaqlanan ziddiyyətlər bir yerdədir. Buna baxmayaraq peşə lətifəsi qapalı və statik olmayıb, əksinə yeni əməkdaşlıq situasiyasında, hər növbəti iş böhranında fərqli kontekstlərdə təkrar-təkrar yenidən istehsal edilən çevik bir kommunikativ mətndir. Bu xüsusiyyətinə görə peşə lətifəsini dəyişən sosial mühitdə kollektiv təcrübənin yenidən mənalandırıldığı və peşə kimliyinin davamlı təzələndiyi diskursiv mexanizm kimi dəyərləndirmək lazımdır. Çünki hər bir folklor mətni sosial kontekst daxilində auditoriya qarşısında məsuliyyətlə icra edilən və hər icrada yenidən qurulan kommunikativ aktdır. Bu aktın dinamikasını öyrənməyin yolu performans nəzəriyyəsindən keçir (Bauman, 1977, s. 37-40; Dundes, 1980, s. 20-25.).

Peşə kimliyinin inşasında kollektiv təcrübə və onun yenilənməsi müəyyənedici funksiya daşıyır. Eyni sektorda çalışan fərdlər oxşar struktur disfunksiyaları, qeyri-real iş bölgüsü, məsuliyyətin subyektiv ötürülməsi və rəhbərlik–işçi üçbucağında yaranan gərginliklərlə qarşılaşırlar. Bu təcrübələr zamanla ortaq simvolik dil və komik modellər formalaşdırır. Lətifə hər dəfə danışıldıqda həmin kollektiv gərginliyi hazır, tanış bir model vasitəsilə yenidən kodlaşdırır: dinləyici situasiyanın bütün mikro-detallarına bələd olmasa da, peşənin ezoterik biliyi sayəsində arxada duran təşkilatı ziddiyyəti dərhal qavrayır. Beləliklə, yumor həm qrupdaxili həmrəyliyi möhkəmləndirir, həm də kollektiv təcrübəni nəsildən-nəslə, şöbədən-şöbəyə təkrar istehsal edərək daşıyır. Lətifənin sosial effektivliyi hamıya bəlli olan tipik böhran vəziyyətini hər dəfə gözlənilməz, lakonik və kontekstə uyğunlaşdırılmış şəkildə yenidən yaratmaq qabiliyyətindən qaynaqlanır (Bauman, 1977; Davies, 2011).

Təbii ki, peşə qrupunun daxili etik və normativ sərhədləri bu fasiləsiz yenidənqurma prosesi ilə birbaşa bağlıdır. Hər bir əmək mühitində səriştə, peşəkarlıq, məsuliyyət və uğursuzluq haqqında formalaşmış yazılmamış qanunlar mövcuddur. Lətifələr həmin normaları, onların pozulmasını gülüş obyektinə çevirərək dolayısı ilə norma və sərhədləri təsdiqləyir. Məsələn, nəzəriyyəni yaxşı bilən ancaq təcrübəsiz kadr, məsuliyyətdən yayınan menecer, reallıqdan qopuq tapşırıqlar verən rəhbər və ya hər canlı prosesi bürokratik protokola boğan işçi obrazları peşə lətifələrində hər situasiyada ifşa edilir və lətifənin hədəfi fərdi çatışmazlıqdan daha çox, institusional idarəetmə modelinin və təşkilati sistemin öz disfunksiyası olur; gülüş vasitəsilə sistemin struktur qüsurları hər təkrar icrada yenidən gözlər önünə sərilir (Dundes, 1980, s. 33-39; Davies, 2002, s. 43-48).

Eyni ilə peşə lətifələrinin sosial mənası stereotiplərin təkrar istehsalı mexanizmində daha qabarıq üzə çıxır. Müəyyən sahələrə mal edilən klişeləşmiş təsəvvürlər – məsələn, informasiya texnologiyaları mütəxəssisinin qapalı xarakteri, mühasibin pedantlığı, hüquqşünasın manipulyativliyi və ya satınalmacının bəhanələri

— komik təhkiyə üçün universal semiotik qəliblər yaradır. Bu stereotiplər ikili təbiətə malikdir: bir tərəfdən peşə qrupunun öz daxili təcrübəsini təsdiqləmək və qrupdaxili sərhədləri çəkmək üçün istifadə edilir (*ezoterik* funksiya), digər tərəfdən isə cəmiyyətin həmin sahəyə kənardan yönəltdiyi şübhə və tənqidləri təcəssüm etdirir (*ekzoterik* funksiya). Nəticədə peşə lətifəsi həm korporativ birliyi bərpa edir, həm də sahələrarası məsafə və qərəzləri yeniləyərək dövriyyədə saxlayır. Onun sosial funksiyası hekayənin hər dəfə hansı auditoriyada, kim tərəfindən və kimə qarşı yenidən səsləndirilməsindən bilavasitə asılıdır (Davies, 2011, s. 32-41, 142-148; Davies, 1990, s. 84-91).

İş yerindəki rəhbərlik və güc asimmetriyası peşə yumorunun əsas hərəkətverici qüvvəsidir. Rəhbər-işçi, mütəxəssis-müştəri və ya icraçı-nəzarətçi münasibətləri qərarvermə və səlahiyyətlərin qeyri-bərabərliyi zəminində qurulur. Açıq etirazın mümkün olmadığı iyerarxik təzyiq altında lətifə bu təzyiqə qarşı dolayı, simvolik müqavimət alətinə çevrilir. Absurd rəhbər göstərişlərini və bürokratik basqıları lağa qoymaq mövcud güc münasibətlərini alt-üst edir və vəziyyəti bir növü karnavallaşdırır. Bununla belə, yumorun güc strukturları qarşısındakı rolu heç də birmənalı şəkildə azadlaşdırıcı deyildir: lətifə bəzən əzici rejimi tənqid etməkdən çox, narazılığı zərərsiz bir gülüşlə yumşaldaraq işçini status-kvoya alışdıra və tabelik münasibətlərini daha da normallaşdıra bilər.

Digər tərəfdən korporativ mədəniyyət çərçivəsində təkrar edilən yumor institusional problemlərin qeyri-rəsmi tənzimləyicisi və diaqnostikası kimi çıxış edir. İşçilərin eyni zarafat ətrafında toplaşması təkcə psixoloji rahatlama yaratmır, həm də təşkilatda hansı disfunksiyaların məlum olduğunu və susqunluqla qarşılandığını sənədləşdirir. İş yükünün ədalətsiz bölgüsü, səlahiyyətsiz məsuliyyət və ya formal hesabatçılığın real fəaliyyəti üstələməsi kimi mövzuların lətifəyə çevrilməsi kollektiv yaddaşın müdafiə refleksidir. Problem davamlı olaraq gülüş obyektinə çevrildikcə kollektiv şüur öz vəziyyətini həm tənqidi şəkildə dərk edir, həm də ona adaptasiya mexanizmi formalaşdırır. Bu mənada peşə lətifələrinin sosial funksiyası, sosial tənqid və eyni zamanda bu ziddiyyətlərin normallaşdırılması kimi ziddiyyətli proseslərin eyni vaxtda cərəyan etdiyi çoxqatlı bir sahədir (Davies, 2011, s. 245-253; Dundes, 1980, s. 38-41; Douglas, 1999, s. 146-155).

Bir sözlə, peşə lətifələrinin sosial mühiti bu mətnlərin niyə və necə yenidən istehsal edildiyini müəyyənləşdirir. Kollektiv yaddaş arxetip konfliktləri hazır komik strukturlar kimi saxlayır və iş mühitində baş verən hər yeni struktur pozulduqda bu strukturları yenidən dövriyyəyə buraxır. Bu nəzəri məntiq peşə lətifələrinin yeni rəqəmsal mühitdəki transformasiyasını izah etmək üçün həlledicidir. Çünki sosial şəbəkələrdə, peşəkar platformalarda və qrup çatlarında yayılan müasir peşə memləri mahiyyətcə həmin köhnə struktur ziddiyyətlərinin yeni vizual-mətn formalarında, qlobal və lokal kontekstlərin hibridləşməsi vasitəsilə yenidən istehsalıdır.

3. Klassik lətifələrin komik mexanizmləri və müasir peşə münasibətləri

Folklor mətnlərinin yenidən istehsalı bir qayda olaraq tələbatla bağlıdır. Klassik lətifələrlə müasir peşə yumorunun müqayisəli təhlili zahiri süjet bənzərliklərindən daha çox, komik situasiyanı formalaşdıran arxetip mexanizmlərin necə yenidən istehsal edildiyinə yönəlməlidir. Hazırcavablıq, gözlənilməz paradoks, bəhanə uydurma, absurd tələb, status uyğunsuzluğu və hakimiyyət fiqurunun karikaturalaşdırılması şifahi mədəniyyətdə olduğu kimi, müasir korporativ mühitin rəqəmsal memlərində də eyni funksional zərurətdən doğur. Ənənəvi şifahi lətifə ilə rəqəmsal peşə memi arasındakı struktur yaxınlıq kollektiv şüurun iyerarxik təzyiq və institusional böhranları mənalandıran köklü arxetipik qəlibləri yeni tarixi şəraitdə yenidən aktuallaşdırması ilə şərtlənir. Bu baxımdan başlıca metodoloji vəzifə süjetlərin xətti mənşəyini axtarmaq olmamalıdır, əksinə komik mexanizmlərin texnoloji transformasiyalar qarşısında invariantlığını qoruyaraq fərqli dövrlərin sosial gərginliklərini önə sürmə dinamikasını müəyyənləşdirməkdir (Dundes, 1980, s. 20-27; Bauman, 1977, s. 15-20).

Ənənəvi lətifələrdə hazırcavablıq zəif tərəfin güc və ya bilik baxımından dominant olan fiqurun hegemonluğunu qəfil məntiqi dönüşlə sarsıtması üzərində qurulur. Molla Nəsrəddin, nökər, şagird və ya sadə kəndli obrazları səlahiyyət sahibinin qurduğu ritorik tələni sözün çoxmənalılığı, ironik qavrayış və gözlənilməz yozumla darmadağın edir. Komiklik cavabın məzmunundan çox, tərəflərin sosial statusu ilə onların intellektual çevikliyi arasındakı ziddiyyətin hər dəfə yenidən səhnələşdirilməsindən doğur. Müasir rəqəmsal peşə yumorunda bu köhnə mövzu menecerin qeyri-real layihə tapşırığına mütəxəssisin ironik reaksiyasında, texniki işçinin rəhbərliyin səriştəsizliyini üstüörtülü ifadə etməsində və bununla da kodlaşdırılmış sarkazmla vəziyyəti ifşa etməsində yenidən təşəkkül tapır.

Müqayisə göstərir ki, klassik lətifədə bəhanə mexanizmi və uğursuzluğu normallaşdırmaq strategiyası əmək münasibətlərində fasiləsiz yenidən yaradılan digər mühüm komik alətdən yaranır. Bu cür lətifələrdə qəhrəman öz qüsurunu və ya səhvini zahirən qüsursuz məntiqlə müdafiə edərək reallığı dil vasitəsilə dekonstruksiyaya uğradır; gülüş hadisənin özündən çox, məğlubiyyəti ört-basdır edən cəsarətdən yaranır. Rəqəmsal peşə mədəniyyətində geniş yayılan *"It's not a bug, it's a feature"* (Bu, xəta deyil, funksional xüsusiyyətdir) aforizmi və vizual memləri həmin klassik bəhanə mexanizminin texnoloji mühitdəki birbaşa semantik təkrarıdır. Hər iki halda da fərd öz səhvini texniki və ya diskursiv dillə yenidən adlandıraraq məsuliyyətdən yayınır. İstehza faktiki disfunksiya ilə onu legitim göstərməyə çalışan təşkilati ritorika arasındakı dərin uçuruma söykənir.

Digər tərəfdən absurd tələb və qeyri-mütənasib gözlənti konflikti həm ənənəvi, həm də müasir əmək münasibətlərinin ana qaynaqlarından birinə çevirir. Klassik lətifələrdə padşahın və ya hakimin reallıqdan bixəbər əmrləri qəhrəmanın eyni dərəcədə absurd, ancaq qanuni cavabı ilə ifşa olunurdusa, müasir korporativ mühitdə bu, məhdud büdcə və sıfır vaxt şəraitində möcüzəvi nəticə tələb edən rəhbər obrazında yenidən istehsal edilir. Burada lətifə və mem sadəcə gərginliyi

şişirtmir, həm də sistemin rəsmi gözləntiləri ilə real əmək imkanları arasındakı daimi qopuqluğu sənədləşdirərək onu dözülə bilən komik fakta çevirir.

Təbii ki, status uyğunsuzluğu yüksək mövqe ilə aşağı peşəkarlıq arasındakı boşluğu hədəf alır. Belə ki, peşə memlərində rəsmi vəzifə iyerarxiyası, şişirdilmiş korporativ titullar və real işi görən aşağı pilləli mütəxəssisin məsuliyyəti arasındakı ədalətsizlik qabardılır. Beləliklə, gülüş fərdin şəxsi səhvindən daha çox, təşkilati strukturun qeyri-rasional və ziddiyyətli quruluşuna yönəlmiş kollektiv tənqidə çevrilir. Nəticədə bütün bu komik xətləri birləşdirən aparıcı mexanizm səlahiyyət sahibinin tənqididir. Ənənəvi mətnlərdəki şəxsləndirilmiş avtoritar güc simvolları müasir korporativ mühitdə fərdi subyekt olmaqdan çıxaraq resursların ədalətsiz bölgüsü, səlahiyyətsiz məsuliyyət və işçinin yadlaşması kimi sistem disfunksiyalarına transformasiya olunur (Davies, 2002, s. 43-49; Davies, 2011, s. 67-75). Beləliklə, komik struktur şəxsiyyətin tənqidindən korporativ institutların və idarəetmə münasibətlərinin dekonstruksiyasına yönəlir.

Ənənəvi lətifələrlə rəqəmsal peşə yumorunun struktur-funksional kəsişməsi köklü komik meyarlar üzrə davamlı paralellik nümayiş etdirir. Burada səhvlərin zahirən əsaslandırıldığı bəhanə mexanizmi isə texniki qüsurların, gecikmələrin və idarəetmə yanlışlıqlarının ironik normallaşdırılması kimi aktuallaşır. Əski süjetlərdəki reallıqdan uzaq absurd göstərişlər müasir iş reallığında məhdud vaxt və resurslar fonunda gözlənilən nəticələrlə, sosial status uyğunsuzluğu isə vəzifə səlahiyyəti, faktiki məsuliyyət və iş yükü arasındakı disproporsiya ilə eyniləşir. Yekunda, rəhbər fiqurunun ədalətsizliyini hədəf alan səlahiyyət tənqidi fərdi subyektlərdən uzaqlaşaraq bütövlükdə korporativ rəhbərlik, sərt müştəri tələbləri və təşkilati bürokratiyanın dekonstruksiyasına istiqamətlənir. Bütün bu modellərdə şifahi lətifəyə xas dialoq, paradoks və gözlənilməz sonluq effekti rəqəmsal məkanda yerini lakonik mətn, vizual qarşıdurma və modulyar mem qəliblərinin sintezinə verir.

Bu iki formanın yaxınlığı komik strukturların sosial ziddiyyətləri səhnələşdirmə məntiqində üzə çıxır. Ənənəvi mətndəki dialoq rəqəmsal peşə memində kino kadrı və ya vizual şablon ilə lakonik korporativ cümlənin kəsişməsində cəmləşir. Belə multimodal struktur komik qarşıdurmanı saniyələr içində çatdırmaqla yanaşı, sosial şəbəkələrin təmin etdiyi dövriyyə sürəti sayəsində modelin digər peşə zümrələri tərəfindən anında mənimsənilməsinə və variasiyalaşmasına imkan yaradır (Shifman, 2014, s. 18-24; Davies, 2011, s. 67-74).

Bu qanunauyğunluq korporativ satınalma və informasiya texnologiyaları sferalarından toplanmış empirik materiallarda aydın izlənilir. Məsələn, satınalma memlərində normativ-hüquqi baza ilə bazar konyunkturası arasındakı ziddiyyət, sənədləşmə xaosu və təchizatçı bəhanələri ənənəvi alver və hiyləgərlik narrativelərinin komik məntiqi üzərində qurulur. Eyni şəkildə İT sferasında texniki reallıqla istifadəçi qavrayışı arasındakı uçurum klassik "cahil-müdrik" qarşıdurmasının rəqəmsal ekvivalentini yaradır.

Hər iki nümunədə müşahidə edilən paralellər birbaşa süjet oxşarlığından və ya istifadəsindən daha çox, komik mexanizmlərin müasir əmək münasibətlərində məna daşıyan işarələr kimi aktuallaşmasını nümayiş etdirir. Başqa sözlə, rəqəmsal platformalar köklü folklor qəliblərini yeni texnoloji kodlarla dövriyyəyə buraxaraq onların davamlılığını təmin edir.

4. Rəqəmsal peşə folklorunun yenidən istehsalı: mem, paylaşım və kollektiv müəlliflik

Müasir dünyanın rəqəmsal mühitində peşə memlərinin şifahi lətifələrlə müqayisəsi bu iki janr arasında xətti tarixi varislik axtarışından daha çox, komik mexanizmlərin və sosial tənqid modellərinin yeni texnoloji şəraitdə necə yenidən istehsal olunduğunu anlamağa xidmət edir. Şifahi lətifə canlı icra zamanı fərdi söyləyicinin təhkiyəsi, söz oyunu və auditoriyanın bilavasitə reaksiyası ilə tamamlanırsa; internet memi şəkil, ekran görüntüsü (skrinşot) və qısa mətnin multimodal kəsişməsində qurulur. İfadə vasitələri və dövriyyə mühiti fərqlənsə də, hər iki forma eyni funksional prinsipə söykənir: kollektiv yaddaşdakı hazır komik strukturlar cari ictimai ziddiyyətləri mənalandırmaq üçün yeni kodlarla aktuallaşır (Oring, 1992, s. 1-15; Blank, 2009, s. 3-12; Dundes, 1980, s. 20-25).

Elliott Oringin irəli sürdüyü "münasib uyğunsuzluq" (appropriate incongruity) prinsipinə görə, komik effekt təkcə ziddiyyətlərin toqquşmasından deyil, bu toqquşmanın konkret sosial mühitdə qəbul olunan məntiqi əsas qazanmasından yaranır (Oring, 1992, s. 1-7). Bu yanaşma peşə memlərinin daxili dinamikasını anlamaqda həlledicidir. Korporativ mühitdə rəhbərin reallıqla uzlaşmayan tapşırığı, sifarişçinin qeyri-mümkün tələbi və ya bürokratik prosedurların işi iflic etməsi kənar şəxs üçün sıradan problem sayıla bilər. Lakin eyni gərginliyi gündəlik əməyində yaşayan ezoterik qrup üçün bu hal məhz "münasib uyğunsuzluq" daxilində komik mənaya çevrilir. Deməli, istər şifahi lətifənin, istərsə də vizual memin qarşılanması auditoriyanın ortaq əmək təcrübəsini tanımasından və ötürülən peşəkar kodu deşifrə edə bilməsindən asılıdır.

İnternet mühiti ənənəvi folklorun sadəcə elektron arxivinə çevrilməmiş, folklorik yaradıcılığın canlı icra və variasiyalaşma məkanına da çevrilmişdir (Blank, 2009, s. 6-18; Howard, 2009, s. 25-35). Limor Şifmanın konseptuallaşdırdığı kimi, internet memləri məzmun, forma və mövqe baxımından ümumi cizgiləri saxlayan, lakin istifadəçilər tərəfindən fasiləsiz surətdə təqlid edilən, montaj olunan və yayılan rəqəmsal vahidlərdir (Shifman, 2014, s. 37-48). Tədqiqatlar internet lətifələrini şifahi və qeyri-formal mədəni ifadələrin canlı şəkildə doğulduğu, variasiyalaşdığı və təkrar istehsal edildiyi müasir rəqəmsal mühit kimi müəyyənləşdirirlər (Blank, 2009, s. 6-18; Howard, 2009, s. 25-35). Beləliklə, rəqəmsal mem ənənəvi mətnin köçürməsi yox, onun sosial-kommunikativ vəzifələrini şəbəkə şəraitində yerinə yetirən modulyar ekvivalentidir.

Bunun sayəsində eyni vizual şablon bir tərəfdən arxetipik mədəni yaddaşla bağını saxlayır, digər tərəfdən müxtəlif əmək sahələrinin diskursuna dərhal adap-

tasiya olunur. Məsələn, qrafik dizaynda yaranmış "müştərinin absurd tələbi və layihənin çökməsi" kadrı kiçik bir mətn dəyişikliyi ilə tikinti mühəndisliyinə, proqramlaşdırmaya və ya maliyyə sektoruna köçürülə bilir. Terminlər dəyişsə də, gözlənti ilə real imkanlar arasındakı struktur ziddiyyət eyni qalır. Bu çeviklik müxtəlif sahələrin işçilərinə öz institusional narazılıqlarını ortaq bir yumor dili ilə ifadə etməyə imkan verir.

Fasiləsiz remiks və tirajlanma ənənəvi folklorşünaslığın "fərdi müəlliflik" paradiqmasını da dəyişir. Şifahi ənənədə variantlaşma söyləyicinin yaddaşı və fərdi ifaçılığı ilə məhdudlaşdığı halda, şəbəkə mühitində ilkin vizualı hazırlayan şəxs bəlli olsa belə, həmin məzmun qısa müddətdə kəsilir, mətni dəyişdirilir, fərqli kontekstlərlə zənginləşdirilir və anonimləşir. Müəlliflik fərdi mülkiyyət çərçivəsindən çıxaraq çoxmüəllifli iştirakçı mədəniyyət modelinə keçir (Jenkins, 2006, s. 135-142; Shifman, 2014, s. 29-35).

Bununla belə, şəbəkə üzərindən tirajlanma birmənalı şəkildə sosial transformasiya doğurmur. Canlı ifa zamanı lətifəçi auditoriyanın anlıq reaksiyasına görə danışığını tənzimlədiyi halda, virtual mem qeyri-müəyyən və açıq auditoriyalar qarşısına çıxır; şərhlər və qarşı-memlər vasitəsilə bəzən kəskin diskursiv mübahisəyə çevrilir. Digər tərəfdən, kütləvi paylaşılan bu etiraz bir çox hallarda sadəcə ekran qarşısındakı reaksiyalarla məhdudlaşır, daxili gərginliyi müvəqqəti soyudur və mövcud təşkilati status-kvonun qalmasına şərait yaradır.

Ümumiləşdirsək, rəqəmsal peşə folklorunun yenidən istehsalı dörd ardıcıl mərhələdə gerçəkləşir:

Birincisi, kollektiv yaddaşda mövcud olan invariant komik mexanizmin (bəhanə, absurd göstəriş, status uyğunsuzluğu) seçilməsi;

İkincisi, bu modelin konkret sahənin institusional probleminə və jarqonuna adaptasiyası;

Üçüncüsü, vizual qəliblə mətnin multimodal sintezi nəticəsində yeni mem variantının formalaşması;

Dördüncüsü, sosial şəbəkələrin paylaşım alətləri vasitəsilə kütləvi, çoxmüəllifli dövriyyəyə daxil olması.

Göründüyü kimi, rəqəmsal peşə memləri ənənəvi folklor irsindən təcrid olunmuş texnoloji yenilik deyil; köklü komik qəliblərin müasir kommunikasiya kanalları vasitəsilə yeni ictimai-əmək münasibətlərində fasiləsiz yenidən hasil olunmasıdır.

5. Empirik korpusun komik strukturları: satınalma və İT peşə sahələrində ənənəvi modellər

Azərbaycan rəqəmsal məkanında formalaşan peşə memləri yerli əmək bazarının ziddiyyətlərini, idarəetmə böhranlarını və təşkilati iyerarxiyanı sənədləşdirən zəngin empirik korpus təqdim edir. Bu materiallar gündəlik ofis reallığının, xüsusən rəhbər-işçi asimmetriyasının, resurs çatışmazlığının və vaxt təzyiqinin yeni media vasitəsilə necə folklorlaşdığını izləməyə imkan verir (Bauman, 1977, s. 8-

12; Dundes, 1980, s. 34-40). Rəqəmsal komik mətnlərin ənənəvi lətifə strukturları ilə kəsişməsini aydın görmək üçün yerli əmək bazarında fəal təmsil olunan iki peşə sahəsinin – korporativ satınalma və informasiya texnologiyaları (İT) zümrələrinin internet yumoruna nəzər salmaq zəruridir.

Təchizat və logistika sferasında dövr edən peşə memləri normativ sənədləşmə tələbləri ilə bazarın real şərtləri arasındakı uyğunsuzluq üzərində formalaşır. Tender-Satınalma-Təchizat (TST) platformasında yayımlanan materiallar bu mexanizmi aydın şəkildə nümayiş etdirir. Məsələn, satınalma üzrə mütəxəssis Elşən Həsənovun təqdim etdiyi silsilədə populyar film personajının çarəsiz baxışları üzərinə yazılmış "Bu dəfə nə bəhanə deyim / Satınalmaçı problemləri vol. 999" mətni birbaşa klassik lətifə poetikasını canlandırır (Həsənov, 2025). Təchizat zəncirində malların gecikməsi, büdcə kəsirləri və ya təchizatçıların öhdəlikləri pozması nəticəsində mütəxəssisin rəhbərlik qarşısında düşdüyü vəziyyət, Molla Nəsrəddin lətifələrindəki çıxılmaz anlarda quraşdırılan bəhanə və kələk süjetləri ilə eyni kompensator funksiyanı daşıyır. Burada komizm normativ qaydaların yaratdığı bürokratik çıxılmazlığın ənənəvi xalq istehzası vasitəsilə neytrallaşdırılmasından doğur.

Eyni platformada yer alan digər bir nümunədə – "Ən ucuz təklifi seçib, sonra niyə keyfiyyətsiz çıxdı deyənlər" mətnli vizualda – qərarverici instansiyaların paradoksal məntiqi hədəfə alınır. Satınalma qanunvericiliyinin əsas tələbi olan "minimal qiymət" prinsipi ilə son məhsulun keyfiyyət standartları arasındakı ziddiyyət ənənəvi alıcı-satıcı və ya kəndli-ağa lətifələrindəki tamahkarlıq motivlərinin korporativ variantıdır (Davies, 2011, s. 67-74). Korporativ ünsiyyətdəki formal nəzakəti və qeyri-müəyyən təxirəsalmanı simvolizə edən "Biz sizə xəbər verəcəyik" stereotipi namizədin sonsuz gözləntisini əks etdirən skelet və ya qocalmış insan vizualı ilə birləşdirilərək əmək bazarındakı qeyri-şəffaf münasibətləri ifşa edir. Paralel olaraq, vəzifə statusu ilə faktiki əmək yükü arasındakı uçurumu göstərən "Vəzifəsi kiçik, öhdəliyi böyük mütəxəssis" ironiyası Molla Nəsrəddin lətifələrindəki status ziddiyyəti və absurd tələb mexanizmlərinin yerli mühitə adaptasiyasıdır. Bu nümunələr fərdi çətinlikləri kollektiv yaddaş tərəfindən qəbul edilən və paylaşılan universal iş təcrübəsi kimi kodlaşdırır.

Digər məsələ informasiya texnologiyaları sahəsində toplanmış empirik faktlarda özünü göstərir. Burada texniki reallıqla qeyri-peşəkar idarəçinin təsəvvürləri arasındakı epistemik toqquşma qabardılır. Məsələn, yerli proqramçıların "Telegram" icmalarında və "LinkedIn" paylaşımlarında geniş yayılan "Müştəri: Sadəcə bir düymənin rəngini dəyişin / Proqram təminatının arxitekturası:" mətni ilə çökməkdə olan, bir-birinə güclə söykənmiş bina təsvirinin qarşılaşdırılması qeyri-kompetent tələbin miqyasını göstərir. Sifarişçi üçün vizual olaraq primitiv görünən tapşırıq arxa planda minlərlə kod sətrinin yenidən yazılmasını tələb edir. Bu ziddiyyət folklorşünaslıqdan məlum olan "absurd hökmdar əmri" və "cahillə bilicinin qarşıdurması" arxetipinin birbaşa davamıdır (Douglas, 1999, s. 148-155).

İdarəetmə səlahiyyətinə malik olan tərəf sistemin mürəkkəbliyini dərk etmədiyi üçün irəli sürdüyü tələb mütəxəssis tərəfindən komik paradoks kimi qəbul edilir.

Bu baxımdan, İT mühitindən gətirilə biləcək digər bir xarakterik nümunə "İstehsalata cümə günü axşam yeniləmə göndərən mühəndis" süjetidir. Yanğın içində oturub gülümsəyən məşhur it vizualı ("This is fine") ilə müşayiət olunan bu mem, həftəsonu öncəsi kritik sistem müdaxiləsinin qaçılmaz fəlakətlə nəticələnəcəyini bilə-bilə riskə gedən işçinin psixologiyasını əks etdirir. Ənənəvi nağıl və lətifələrdə qadağan olunmuş hərəkəti edib gözlənilən bəlaya düçar olan personajın taleyi burada korporativ təhlükəsizlik qaydalarının pozulması və texniki sistemlərin çöküşü kontekstində yenidən istehsal olunur.

Nəhayət, təhlil edilən empirik faktlar göstərir ki, həm satınalma, həm də İT sferasındakı rəqəmsal peşə yumoru dörd başlıca invariant komik mexanizm üzərində qurulur. İlk növbədə, məhdud büdcə və sıx vaxt çərçivəsində möcüzəvi nəticə tələbi nağıl-lətifə ənənəsindəki "bir qarış parçadan üç kürk tikdirmək" motivini canlandırır və menecerin qeyri-real planları ilə mövcud resurslar arasında kəskin disproporsiya yaradır. Bununla yanaşı, "vəzifəsi kiçik, öhdəliyi böyük mütəxəssis" ironiyasında ifadə olunduğu kimi, işçiyə heç bir sərbəst qərarvermə səlahiyyəti verilmədiyi halda bütün uğursuzluqların məsuliyyətinin onun üzərinə yüklənməsi zəif təbəqənin cəzalandırıldığı ənənəvi ədalətsizlik süjetlərini təkrarlayır. Digər tərəfdən, qısa müddətdə icra oluna biləcək işlərin ardıcıl təsdiq mərhələləri, idarə heyətinin uzunsürən iclasları və sənədləşmə tələbləri ilə dondurulması fərdi şəxslərin səlahiyyət sfersından çıxıb canlı əməyi iflic edən bürokratik labirinti və inzibati sistemi hədəf alan tənqidi komizm formalaşdırır. Nəhayət, prosesin mahiyyətindən xəbərsiz rəhbərliyin göstərişləri mütəxəssisin peşəkar biliyi ilə toqquşaraq səlahiyyət və bilik asimmetriyasını üzə çıxarır, bu isə qeyri-kompetent idarəçinin mövqeyini sarsıdan istehza zəmini yaradır.

Bütün bu mexanizmlərin rəqəmsal mühitdəki təsiri multimodal kontrastdan qaynaqlanır, yəni populyar mədəniyyətə aid kadrın (kino səhnəsi, məşhur simanın çaşqın mimikası) yaratdığı emosional fon mətnin rəsmi korporativ ritorikası ilə toqquşur. Nəticədə rəsmi dilin pafosu və bürokratik ciddiyyət bir neçə sözlə darmadağın edilir, ortada islahedici gülüş qalır.

Peşə lətifələri aspektindən yanaşdıqda internet mühitində yenidən yaranan hər bir zarafat avtomatik şəkildə folklor faktına çevrilmir. Müşahidə olunan memlərin folklorlaşması onların müəyyən bir peşə zümrəsinin ortaq əmək gərginliyini təmsil etməsindən, sosial şəbəkələrdə fərqli variantlarla fasiləsiz dövr etməsindən və kollektiv yaddaşda sabit komik model kimi qəbul olunmasından asılıdır (Shifman, 2014, s. 55-62; Jenkins, 2006, s. 135-143).

Nəticə

Aparılan tədqiqat göstərir ki, ənənəvi şifahi lətifələrlə müasir rəqəmsal peşə memləri arasındakı uyğunluq mexaniki genetik varislikdən daha çox, arxetipik komik mexanizmlərin (hazırcavablıq, status uyğunsuzluğu, rəhbər obrazının kari-

katuralaşdırılması) yeni texnoloji şəraitdə funksional rekontekstualizasiyası ilə bağlıdır. Forma və dövriyyə fərqlərinə baxmayaraq, hər iki komik ənənə iyerarxik təzyiqlər qarşısında eyni struktur-funksional məntiqlə fəaliyyət göstərir və folklorun dəyişən sosial-tarixi mərhələlərə uyğunlaşan canlı kommunikasiya sistemi olduğunu təsdiqləyir.

Tədqiqatın gəldiyi əsas nəzəri qənaət rəqəmsal peşə folklorunun fərdi əmək gərginliyini kollektiv müdafiə refleksinə çevirməsidir. Rəqəmsal məkan ənənəvi fərdi müəllifliyi aradan qaldıraraq iştirakçı mədəniyyət əsasında formalaşan dinamik kollektiv müəlliflik modelini bərqərar edir. Bu prosesdə memlər yalnız rekreaktiv gülüş vasitəsi kimi deyil, institusional disfunksiyalara qarşı simvolik etiraz forması və peşəkar identikliyi bərpa edən kompensator mexanizm kimi çıxış edir. Metodoloji baxımdan tədqiqat süjetin zahiri bənzərliyi ilə arxetipik mexanizmlərin struktur təkrarı arasındakı fərqi qorumaqla folklorşünaslıqda təsadüf edilən birtərəfli təkamülçü yanaşmaların məhdudiyyətini aradan qaldırır.

Bununla yanaşı, rəqəmsal folklorun ifrat dinamizmi, materialların alqoritmik manipulyasiyaya məruz qalması və ilkin kontekstin sürətlə itməsi tədqiqatın empirik əhatəliliyini şərtləndirən başlıca məhdudiyyətdir. Virtual mühitdəki populyarlıq dərəcəsi hər zaman bütün peşə zümrəsinin obyektiv təmsili demək olmadığından, gələcək araşdırmalarda konkret sahələr üzrə yayılma xronologiyasını, istifadəçi reaksiyalarını və sosioloji müsahibələri ehtiva edən daha geniş multidisciplinar korpusların formalaşdırılması zəruridir.

Ümumiləşdirmə göstərir ki, rəqəmsal peşə memləri müasir əmək münasibətlərindəki yadlaşma və bürokratik absurdluğu neytrallaşdıran çevik mədəniyyət faktıdır. Təhlil edilən faktlar folklorun texnoloji transformasiyalar qarşısında sönmədiyini, əksinə, yeni semiotik kodlarla yenidən istehsal olunan fasiləsiz adaptasiya və müqavimət təcrübəsi olduğunu elmi baxımdan əsaslandırır.

Qaynaqça

Bascom, W. R. (1954). Four functions of folklore. *The Journal of American Folklore*, *67*(266), 333–349. https://doi.org/10.2307/536411

Bauman, R. (1977). *Verbal art as performance*. Newbury House Publishers.

Ben-Amos, D. (1971). Toward a definition of folklore in context. *The Journal of American Folklore*, *84*(331), 3–15. https://doi.org/10.2307/539729

Benjamin, W. (1936). Das Kunstwerk im Zeitalter seiner technischen Reproduzierbarkeit. *Zeitschrift für Sozialforschung*, *5*(1), 40–68.

Blank, T. J. (Ed.). (2009). *Folklore and the internet: Vernacular expression in a digital world*. Utah State University Press.

Brunvand, J. H. (1981). *The vanishing hitchhiker: American urban legends and their meanings*. W. W. Norton & Company.

Brunvand, J. H. (1984). *The choking Doberman and other "new" urban legends*. W. W. Norton & Company.

Brunvand, J.H. (1993). *The baby train and other lusty urban legends*. W.W.Norton & Company.

Brunvand, J. H. (1999). *The too-good-to-be-true book of urban legends*. W.W.Norton & Company.

Davies, C. (1990). *Ethnic humor around the world: A comparative analysis*. Indiana University Press.

Davies, C. (2002). *The mirth of nations*. Transaction Publishers.

Davies, C. (2011). *Jokes and targets*. Indiana University Press.

Douglas, M. (1999). Jokes. In *Implicit meanings: Selected essays in anthropology* (pp. 146-164). Routledge.

Dundes, A. (1980). Work and the alternative culture: A study in modern folklore. In *Interpreting folklore* (pp. 33–41). Indiana University Press.

Həsənov, E. (2021, 25 oktyabr). *Satınalma "meme"ləri*. TST. (Yenilənib 2025, 2 fevral). https://www.tst.az/post/satinalma-memeleri

Howard, R. G. (2009). The vernacular web of participatory media. In T. J. Blank (Ed.), *Folklore and the internet: Vernacular expression in a digital world* (pp. 25–41). Utah State University Press.

Jenkins, H. (2006). *Convergence culture: Where old and new media collide*. New York University Press.

Oring, E. (1992). *Jokes and their relations*. University Press of Kentucky.

Shifman, L. (2014). *Memes in digital culture*. MIT Press.

Redaksiyaya daxilolma tarixi:
İlkin variant: 11.06.2026
Son variant: 22.10.2026

Şakir ALBALIYEV
AMEA Folklor İnstitutu,
filologiya elmləri doktoru, dosent
albaliyevshakir@rambler.ru
ORCID: 0000-0002-4261-3054
https://doi.org/10.59849/2309-7922.2026.2.18

DAŞ KULTU İLƏ BAĞLI ƏDƏBİ-MƏDƏNİ MƏTNLƏRİN SEMANTİKASI

Xülasə

Məqalədə daş kultu ilə bağlı dini-mifik təsəvvürlərin Azərbaycan poeziyasında bədii-poetik inikasını necə tapdığı məsələləri gözdən keçirilir. Bu məqsədlə müəllif vaxtilə özünün də daşla bağlı mövzularda yazdığı və mətbuatda çap olunmuş şeirlərini də təhlil müstəvisinə gətirmişdir. Beləcə tədqiqatçı burada həm özünün folklorşünas kimi qənaətlərini, həm də bədii-poetik düşüncələrini paralel şəkildə ortaya qoymuşdur.

Bundan başqa tədqiqatçı məqalədə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri olan Əliağa Kürçaylı, Zəlimxan Yaqub, Mahirə Nağıqızı kimi sənətkarların da mövzu ilə bağlı şeirlərindən bəzi nümunələrə diqqət çəkmişdir. Bu poetik örnəklərin timsalında müəllif folklor yaddaşında və bədii-poetik-fəlsəfi düşüncəmizdə daş kultunun və eləcə də daş kultunun təşxisləndirilmiş obrazının milli-mədəni yaddaşdakı yerinə aydınlıq gətirmişdir. İsbat edilmişdir ki, şair və yazıçılarımız da mənsub olduqları xalqın övladları olmaqla xalq ruhunun bədii tərcümanı kimi fəaliyyət göstərirlər. Özgə sözlə, xalqın arxaik düşüncəsində mövcud olan daş kultu ilə bağlı dini-mifik təsəvvürlər xalq sənətkarlarının qələmində təzədən gül açır, yaradıcı təxəyyülün süzgəcindən keçirilməklə poetik bir ovqatda oxucu kütləsinə ünvanlanır.

Məqalədə tədqiqatçı isnad etdiyi ədəbi-mədəni mətnlərə – yəni ayrı-ayrı bədii söz sənəti nümunələrinə söykənməklə daş kultu ilə bağlı xalq şüurunda mövcud olan dini-mifik təsəvvürlərin bədii şüurda daşıdığı semantik laylara aydınlıq gətirmişdir. Əsaslandırmışdır ki, poetik fiqur kimi ədəbiyyatda daş mövzusuna müraciət edən söz adamları əslində daş kultu ilə bağlı folklorik təsəvvürlərin bədii inikasını vermişlər. Beləcə, xalq və sənətkar amili vəhdətdə götürülmüş, eyni mədəniyyətin şifahi və yazılı yaddaş qollarını təmsil etmişdir.

Açar sözlər: daş kultu, ədəbi-mədəni mətnlər, Şakir Albalıyev, "Kredo" qəzeti, bədii, poetik, folklor, sənətkar, şeir, inanc və s.

Shakir ALBALIYEV

THE SEMANTICS OF LITERARY AND CULTURAL TEXTS ASSOCIATED WITH THE CULT OF STONE

Summary

The article examines the artistic and poetic representation of religious and mythological beliefs associated with the cult of stone in Azerbaijani poetry. To this end, the author also incorporates into the analysis his own poems on the theme of stone,

previously published in the press. Thus, the researcher presents, in parallel, both his findings in folklore studies and his artistic and poetic reflections.

Furthermore, the author draws attention to selected poems addressing this theme in the works of such prominent representatives of Azerbaijani literature as Aliaga Kurchayli, Zalimkhan Yagub, and Mahira Nagykizi. Through these poetic examples, the author elucidates the place of the cult of stone, as well as its personified image, within national and cultural memory, folkloric heritage, and artistic, poetic, and philosophical thought. The article substantiates the argument that poets and writers, as members of their respective communities, serve as artistic interpreters of the national spirit. In other words, religious and mythological beliefs associated with the cult of stone, preserved in the archaic consciousness of the people, are revitalized in the works of folk-inspired literary artists. Filtered through the lens of creative imagination, these beliefs acquire poetic expression and are conveyed to readers in an artistic and figurative form.

Drawing on the literary and cultural texts examined, that is, individual works of verbal art, the researcher elucidates the semantic layers that religious and mythological beliefs associated with the cult of stone, rooted in popular consciousness, acquire within artistic thought. The author argues that writers and poets who employ the theme of stone as a poetic device are, in essence, presenting an artistic representation of folkloric beliefs associated with the cult of stone. Thus, the popular cultural tradition and the artist's creative individuality are considered in their unity, representing the oral and written forms of memory within a shared cultural heritage.

Keywords: cult of stone, literary and cultural texts, Shakir Albalayev, *Kredo* newspaper, artistic expression, poetry, folklore, literary artist, poem, beliefs, and others.

Шакир АЛБАЛЫЕВ

СЕМАНТИКА ЛИТЕРАТУРНО-КУЛЬТУРНЫХ ТЕКСТОВ, СВЯЗАННЫХ С КУЛЬТОМ КАМНЯ

Резюме

